***DİSTANT TƏHSİL***
***ДИСТАНЦИОННОЕ ОБРАЗОВАНИЕ***
***DISTANCE EDUCATION***

*UOT 378.018.43*

***Nübar Əhmədəli qızı İsazadə***
*Azərbaycan Turizm və Menecment Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-4591-9083*
*E-mail: nubar2017@list.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).63-66

# DİSTANT TƏHSİL TEXNOLOGİYASI VƏ ONUN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

***Нубар Ахмедали гызы Исазаде***
*докторант по программе доктора философии*
*Азербайджанского Университета Туризма и Менеджмента*

# ТЕХНОЛОГИЯ ДИСТАНЦИОННОГО ОБУЧЕНИЯ И ОСОБЕННОСТИ ЕЕ ПРИМЕНЕНИЯ

***Nubar Ahmadali Isazade***
*doctoral student in the program of doctor of philosophy*
*at Azerbaijan University of Tourism and Management*

# DISTANCE EDUCATION TECHNOLOGY AND ITS APPLICATION FEATURES

**Xülasə.** Təhsil sistemində istifadə olunan metodların inkişaf etdirilməsi ilə bərabər yüksək texnologiyaların da inkişafı və tətbiqi distant təhsilin müasir dövrdə aktuallığını artırmışdır. Distant təhsil sayəsində zaman, məkan və maliyyə çatışmamazlıqları baxımından kifayət qədər uyğun şəraitdə təhsil ala bilmək imkanı ola bilər. Distant təhsil – təhsil almaq istəyən şəxslə təhsil verənin coğrafi uzaqlıqda olduğu hal üçün istifadə olunan öyrənmə-öyrətmə (şagird-müəllim) sistemidir. Bu zaman müxtəlif informasiya vasitələri və qarşılıqlı təsir kanallarından istifadə edilərək öyrənmək istəyənlə (şagird) öyrədən (müəllim) bir-biri ilə ünsiyyət qurur. Təhsildə kitablar, nəşr olunmuş əlavə materiallar və əyani vasitələrdən istifadə edilə bildiyi kimi, video-audio disklər, elektron kitablar, kabel, peyk və s. İnteraktiv telekonfransların yaradılması da öyrədici vasitə rolunu oynaya bilər. Dərs materialları bu zaman daha çox şagirdi əhatə edə bilər və öz sahəsində mütəxəssis olan şəxs eyni zamanda daha çox sayda şagirdə dərs keçə bilər. Distant təhsil vasitəsilə şagird müəllimin tərtib etdiyi proqramla deyil, öz imkanlarına uyğun və əlverişli olan proqramla işləyə bilər. Distant təhsil nəinki təhsil təşkilatlarına əlaqə texnologiyalarını əlavə edir, eyni zamanda müasir təhsil sistemində bilik və informasiyanın çox sürətlə dəyişməsi səbəbiylə ömür boyu təhsilə çevrilir. Beləliklə, distant təhsil ənənəvi təhsillə bərabər imkanları təmin edə bilər, bu da təhsilə demokratik xüsusiyyət qazandırır.
***Açar sözlər:*** *distant təhsil, keyfiyyət, inkişaf, müasir tədris, optimal yanaşma*

**Аннотация.** В современный период, наряду с развитием методов, используемых в системе образования, развитие и применение высоких технологий повысило актуальность дистанционного образования. Благодаря дистанционному обучению появляется возможность учиться в условиях, которые вполне подходят с точки зрения временных, пространственных и финансовых ограничений. Дистанционное образование – это система обучения-преподавания (ученик-учитель), используемая в случаях, когда лицо, получающее образование, и педагог находятся на большом расстоянии друг от друга. В это время человек, который хочет учиться (ученик), и человек, который учит (учитель), общаются друг с другом, используя различные информационные средства и каналы взаимодействия. В образовании могут использоваться книги, опубликованные дополнительные материалы, наглядные

пособия, а также видео – и аудиодиски, электронные книги, кабельное, спутниковое телевидение и т. д. Создание интерактивных телеконференций также может служить средством обучения. Тогда материалы курса могут охватывать большее количество учащихся, и человек, являющийся экспертом в своей области, может обучать большее количество учеников одновременно. Благодаря дистанционному обучению ученики могут работать по той программе, которая им подходит и удобна, а не по программе, разработанной учителем. Дистанционное образование не только добавляет коммуникационные технологии в учебные заведения, но и становится образованием на протяжении всей жизни из-за быстрого обмена знаниями и информацией в современной системе образования. Таким образом, дистанционное образование может предоставить равные возможности традиционному образованию, что придает образованию демократический характер.

***Ключевые слова:*** *дистанционное образование, качество, развитие, современное обучение, оптимальный подход*

**Abstract**. Along with the development of methods used in the education system, the development and application of high technologies have increased the relevance of distance education in the modern era. Thanks to distance education, it is possible to receive education in quite suitable conditions in terms of time, space and financial constraints. Distance education is a learning-teaching (student-teacher) system used when the person who wants to receive education and the person who gives education are geographically distant. In this case, the person who wants to learn (student) and the person who gives education (teacher) communicate with each other using various information tools and interaction channels. Just as books, published additional materials and visual aids can be used in education, the creation of video-audio discs, electronic books, cable, satellite, etc. interactive teleconferences can also play the role of educational tools. In this case, lesson materials can cover more students and a person who is an expert in his field can teach a larger number of students at the same time. Through distance education, the student can work not with the program designed by the teacher, but with a program that is suitable and convenient for his capabilities. Distance education not only adds communication technologies to educational institutions, but also becomes lifelong education due to the rapid change of knowledge and information in the modern education system. Thus, distance education can provide equal opportunities with traditional education, which gives education a democratic character.

***Keywords***: *distance education, quality, development, modern education, optimal approach*

Distant təhsilin inkişafından bu yana bir çox texnologiyalardan istifadə edilir. Bəzi texnologiyalar ənənəvi təhsili dəstəkləyir, bəziləri də ənənəvi təhsilin əvəzinə istifadə edilir. Bəzi texnologiyalar müəyyən çərçivədə bilik verir, bəziləri isə şagirdin ehtiyacına görə əlavə bilik verə bilər və ya dərs materialını asanlaşdıra bilər. Məsələn, ABŞ-da distant təhsil şagird və tələbələrlə ikitərəfli qarşılıqlı təsiri təmin etmək şəklində qurulmuşdur.

Keyfiyyətli distant təhsil sistemi üçün şagird və ya tələbənin iştirakı və qarşılıqlı əlaqə qurmasından asılıdır. Distant təhsil sistemi ənənəvi təhsilə nə qədər çox yaxınlaşa bilərsə, bir o qədər interaktiv bir sistem kimi məqsədini reallaşdıra bilər. Distant təhsildə yeni texnologiyaların istifadəsinin artması ilə birlikdə qarşılıqlı təsirdə də bir çox müxtəliflik yaradılmağa başlanmışdır. Bu da distant təhsilin əhatə dairəsini genişləndirir. Audio-telekonfrans, video konfrans, e-mail, chat (söhbət) vasitələri, görüntülü toplantılar, şagird və ya tələbələrin bir-birlərini tanıya bilmələri imkanı, qarşılıqlı təsirdə bir-birlərini tapa bilmə və sistemi tanıya bilmə imkanları yaradılır [4].

Distant təhsildə qarşılıqlı təsir sistemi üç şəkildə ola bilər:

1. Şagirdlə müəllim arasında qarşılıqlı təsir sistemi;
2. Şagirdlə dərs materialı arasında qarşılıqlı təsir sistemi;
3. Şagirdlə şagird arasında qarşılıqlı təsir sistemi.

Müvəffəqiyyətli distant təhsil şagirdlər arasında sıx ünsiyyət sisteminin yaradıla bilməsi ilə xarakterizə edilir. Çünki distant təhsil alan şagird yalnızlıq duyğusu hiss edə bilər. Şagirdlərə xüsusilə vaxtlarını düzgün təşkil etmə, təhsil alma qabiliyyətlərinin inkişaf etdirilməsi, tədris vasitələrindən müvəffəqiyyətlə istifadə edə bilmələri üçün məsləhətlər, eləcə də dərslərlə əlaqəli akademik məsləhətlər də verilə bilər. Distant təhsildə müxtəlif texnologiyalardan istifadə edilir: adi poçt xidməti, kitab və nəşr materialları; radio-səs kasetləri, televiziya, video, telekonfrans, kompüter, internet və s. Adi poçt xidməti, kitab və nəşr materialları: Distant təhsildə ilk olaraq adi poçt xidməti vasitəsilə təhsil

təşkil edilmişdir. Şagird və tələbələrə kitablar və nəşr materialları poçtla göndərilmişdir.

Yüksək texnologiyaların inkişaf etməsinə baxmayaraq kitablar və nəşr materiallarından istifadə hələ də davam edir. Radio-səs kasetləri: Bu vasitələrin ən sıx olaraq istifadə edildiyi sahə xarici dillərin öyrənilməsi olmuşdur. Televiziya: Televiziya vasitəsilə mövzular haqqında geniş biliklər verilmiş, hekayə, film və real həyatdan nümunələr göstərilmişdir. Video: Televiziyadan fərqli olaraq videodan istifadə etməklə vaxt maneəsi aradan qaldırılmış və tədris alanın öz istəyinə görə biliklər əldə edilməsi imkanı yaranmışdır. Telekonfrans: Telekonfrans vasitəsilə ayrı-ayrı yerlərdə olan qruplar öz aralarında əlaqə yaradırlar. Şagird və ya tələbələrlə müəllimlər bir-birlərilə eyni zaman anında qarşılıqlı ünsiyyət imkanı əldə edə bilirlər [1]. Həm audio-konfrans, həm də video-konfransdan istifadə edilir. Peyk televiziya şəbəkəsi: Bu tip texnologiya vasitəsilə təhsil çox populyar olub, bir sıra təşkilatlar tərəfindən biliklər əldə etmək üçün istifadə edilir. Kompüterdən istifadə etməklə təhsil: Kompüterdən istifadə etməklə CD, DVD-lərlə istifadəçiyə çatdırılan təhsildir. Kompüterə qoşulan kamera, skaner vasitəsilə müxtəlif tipli sənədlər və şəkillər bir yerdən başqa yerə göndərilə bilər. İmtahanlar kompüter vasitəsilə keçirilə bilər və dərhal qiymətləndirilə bilər.

İnternetlə təhsil: Bu texnologiyaya bəzən "Veb əsaslı təhsil", "online elektron siniflər" və ya "virtual təhsil birlikləri" də deyilir. İnternetlə təhsil texnologiyası yuxarıda sadalanan hər üç qarşılıqlı təsir sistemini dəstəkləyir. Müxtəlif verilənlər bazası, elektron nəşrlər, jurnallar, kitabxanalar və linklər köməkçi qaynaq olaraq distant təhsilə kömək edir. Distant təhsildə yuxarıda göstərilən texnologiyalardan biri və ya bir neçəsi birlikdə istifadə edilə bilər. Bu texnologiyalardan hansının istifadə ediləcəyi, hansının daha effektiv olacağı hədəfdə olan şagird kütləsinin xüsusiyyətləri, kursun məqsəd və məzmunu və tədrisin müddətindən asılıdır [5].

Bu gün İKT-nin təhsilə tətbiqi sahəsində inkişaf əsasən 2 istiqamətdə davam edir:

1. Ənənəvi təhsil formalarının formalarının təkmilləşdirilməsi, yeniləşdirilməsi və tədrisin keyfiyyətinin yüksəldilməsində İKT-dən istifadə.

2. Təhsil prosesində yeni metodların yaradılması və yeni metodlardan istifadə etməklə distant (məsafədən) təhsil texnologiyasının tətbiqi.

Distant təhsil formasının inkişafı fərdi kompüterlərin və internet şəbəkənin yaranması ilə sürətlənmiş, və indi ən populyar təhsil formasına çevrilməkdədir.

Distant təhsilin baza xüsusiyyətlərinə əsasən aşağıda göstərilənlər aid edilir:

1. Əhalinin təhsil alma imkanlarının artması: Məsələn, əgər vaxt amili ənənəvi formada təhsil iştirakçılarının müəyyən mənada fəaliyyətini məhdudlaşdırırdısa, distant təhsil zamanı bu məhdudiyyətlərin demək olar ki, bütünlüklə aradan qalxır.

2. İnformasiyanın radikal olaraq tamamailə yeni forma və məzmunda çatdırılmasının təmin olunması: Məsələn, multimedia sistemlərinin tədris fəaliyyətində geniş tətbiqi, informasiyanın qeyri-standart üsullarla təqdimatı, iri həcmli avtomatlaşdırılmış sorğu sistemlərindən istifadə imkanlarının genişlənməsi (elektron kitabxana xidmətləri, elektron konfrans və s.)

3. Biliklərin daha təkmil qaydada qiymətləndirilməsi imkanlarının artması, test texnologiyasının tətbiqi və nəticələrin analitik sistemlərin köməyi ilə təhlili və s.

Distant təhsillə məşğul olan tədris müəssisələrini əsasən 3 kateqoriyaya ayırmaq olar:

1. Yalnız distant təhsillə məşğul olan təhsil müəssisələri. Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı çox deyildir və bu formada təhsil verən müəssisələr əsasən ABŞ-da daha geniş yayılmışlar.

2. Mütəxəssislərin təkmilləşdirilməsi və yenidən hazırlanması üzrə fəaliyyət göstərən müəssisələr. Hazırda dünyada bu növ fəaliyyətlə məşğul olan çoxlu sayda təhsil müəssisələri mövcuddur və bu müəssisələr fəaliyyətlərini əsasən distant yolla həyata keçirməyə üstünlük verirlər. Dünyanın bir çox aparıcı ali məktəblərində mütəxəssislərin təkmilləşdirilməsi və yenidən hazırlanması fakültələri və ya kursları mövcuddur. Distant təhsil üsulu belə mobil qrupların çevik yaradılmasına, onlarla işin səmərəli təşkilinə yaxşı imkanlar yaradır və bu həm virtual qrup nümayəndəsinin həm də onun tədrisinin təşkili ilə məşğul olanların işinin təşkili üçün böyük imkanlar açır. Qeyd etmək lazımdır ki, əksər distant təhsil müəssisələri təkmilləşdirmə və yenidən hazırlanma təhsilinin təşkilində öyrənənlərin sifarişlərinə əsaslanır ki, bu da sonda yaxşı effektin alınmasına səbəb olur.

3. Eyni zamanda həm ənənəvi təhsil, həm də distant təhsillə məşğul olan təhsil müəssisələri: Hazırda dünyanın demək olar ki, bütün aparıcı ali təhsil müəssisələri distant təhsil formasından çox geniş istifadə edirlər və bu növ təhsil forması ilə məşğul olan altqurumlar həmin müəssisələrin Açıq Təhsil Fakültələri adlanırlar. Açıq təhsil fakültələrində işin uğurlu təşkili hər şeydən əlavə müəssisəyə əlavə gəlirlərin və dividentlərin cəlb olunmasına gözəl imkanlar açır və s.

Son illərdə distant təhsil forması təhsil və informasiya mədəniyyəti sahəsində qlobal (köklü) dəyişikliklərə səbəb olmuş, və hazırda inkişaf etmiş dövlətlərin əsas təhsil formasına çevrilməkdədir. Distant təhsil formasının inkişafı yeni təhsil müəssisələrinin, fakültələrin yaranmasına təkan verir və bu növ təhsil formasında təhsil almaq istəyənlərin sayının sürətlə artmasına və beləliklə də təhsilə yeni əlavə xərclərin cəlb olunmasına səbəb olur [2]. Lakin, artıq distant təhsil sisteminə keçmiş dünya ali məktəblərinin təcrübəsi sübut edir ki, bu forma təhsil sisteminin təşkilinə xərclənən vəsait tezliklə özünü doğruldur və müəssisəyə əlavə böyük gəlirlərin daxil olmasına yaxşı zəmin yaradır.

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, distant təhsil son illərin ən geniş yayılmış mövzularından biri kimi bir çox yeni ədəbiyyatlarda işıqlandırılmışdır.

**Problemin elmi yeniliyi.** Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Bir çox pedaqoqlar və elm xadimləri, elm sahəsində çalışan şəxslər distant təhsil ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

## Ədəbiyyat:


1. Qurbanov, C. Müasir tədris metodları və distant öyrənmə //- Bakı: Bakı Universiteti Nəşriyyatı. - 2022, - s.35-40
2. Məmmədov, Ə. Təhsildə rəqəmsallaşmanın psixoloji aspektləri və distant təhsil //- Bakı: Təhsil Nəşriyyatı. - 2021, - s.567
3. Məmmədov, M. Distant təhsil texnologiyaları və metodikası //- Bakı: Maarif Nəşriyyatı. - 2021, - s. 478
4. Mustafayev, Y. Virtual təhsil mühitində qiymətləndirmə və rəy bildirmə. //- Bakı: Maarif Nəşriyyatı. - 2020, - s.57-78
5. Nəcəfov, D. Təhsil texnologiyalarının innovativ tətbiqləri və distant təhsil. //- Bakı: Elm Nəşriyyatı. - 2021, - s.135
6. Orucova, F. Azərbaycan məktəblərində distant tədris təcrübəsi və nəticələr//- Bakı: Təhsil Nəşriyyatı. - 2023


**Redaksiyaya daxil olub:** 21.01.2025